# Pöhrələnən böyük arzu

2008-ci il idi. Bakının Maştağa qəsəbəsindəki Kamal Məmmədov adına 209 saylı orta məktəbin iclas zalının səhnəsində hərbi paltar geymiş vüqarlı bir oğlan söyləyirdi bu şeiri. O yalnız hərbi paltar geyindiyinə görə deyil, həm də şeiri söyləmək üçün Kəmalə müəllimənin yaratdığı müsabiqədə qalib olduğuna görə belə vüqarlı idi. Belə ki, məktəbin 1-ciləri əlifba bayramına hazırlaşırdılar. Torpaqlarımızın 20% nin işğal altında olduğu dövrdə vətənpərvərlik mövzusu bütün tədbirlərin başlıca motivi idi. Elə həmin gün keçirilən tədbirdə də əsgər şeirini oğlanların əksəriyyəti söyləmək istəyirdi. Çətin vəziyyətdə qalan müəllimə müsabiqə elan edir. Bildirir ki, sabah kim vurma cədvəlini əzbərdən söyləsə, şeiri ona tapşıracağam. Məhərrəm Səmədov səhərə kimi yatmayır, vurma cədvəlini əzbərləyir və qalib olur. Müəllimə şeiri ona həvalə edir. Elə bu səbəbdən də Məhərrəm belə vüqarlı idi. Lakin o zaman heç kəs bilməyirdi ki, uğrunda mübarizəyə qoşulduğu bu geyim onun əbədiyyət paltarı olacaq.

Məhərrəm Elxan oğlu Səmədov 2001-ci ilin gözəl bir günündə, Azərbaycan xalqının böyük təntənə ilə hazırlaşdığı Novruz bayramının astanasında, martın 20-də dünyaya gəlib. Hicri təqvimi ilə isə, Məhərrəm ayı idi. Ona görə də körpənin adını Məhərrəm qoyurlar. 2007-ci ilin sentyabrında qəsəbədəki Kamal Məmmədov adına 209 saylı məktəbin I sinfinə gedən Məhərrəm nümunəvi şagird olması ilə yanaşı, tərbiyə və davranışı ilə də müəllim və şagird kollektivinin rəğbətini qazanmışdı. Məhərrəmin özündən bir yaş böyük bir qardaşı da vardır. Hər ikisi eyni sinifdə oxuyurdular. Qardaşı bədəncə zəif olduğundan Məhərrəm həmişə onun qayğısına qalırdı. Tale elə gətirib ki, atası ikinci dəfə ailə qurub. Bu izdivacdan ailədə daha iki öğlan uşağı dünyaya gəlib. Son dərəcə mehriban və diqqətcil olan Məhərrəm balaca qardaşlarının da qayğısına qalırdı. Onları məktəbə aparmağı da öz öhtəsinə götürmüşdü. Məhərrəm gözəl əxlaqi davranışları, zəhmətsevərliyi ilə ailədə böyüklü-kiçikli hamının hörmətini qazanmışdı. Körpə vaxtından nənəsi Yaqut xanımın yanında qalmışdı. Nənəsi iyirmi üç yaşlı bir qız övladını vaxtsız itirdiyindən uzun müddət təskinlik tapa bilməmişdi. Buna görə də Məhərrəm nənəsinə xüsusi qayğı ilə yanaşır, hər kəsə tapşırırdı ki, nənənin yanında onu kövrəldə biləcək sözlər danışmasınlar. Adı gələndə gözləri dolan, için-için ağlayan nənə Məhərrəmi dünyalar qədər istəyirdi. Kiçik yaşlarından təqaüdündən onun üçün pul ayırmışdı. Məhərrəm bədxərclik etməz, həmin pulları yığardı.

2016-cı ildə məktəbi bitirən Məhərrəm Binə qəsəbəsindəki 101 saylı Peşə Məktəbinə də qardaşı ilə birlikdə gedir. Qardaşlar burada elektrik peşəsinə yiyələnirlər. 2019-cu ildə Peşə Məktəbini bitirən kimi hər iki qardaş üçün Həqiqi Hərbi Xidmətə çağırış vərəqi gəlir. Qardaşı çəkisi normadan aşağı olduğuna görə Ordudan tələxis olunur. Bu günə kimi işsizdir.







Məhərrəm Elxan oğlu Səmədov 2019-cu il, aprel ayının 1-də Hərbi Xidmətə yollanır. O da həmkəndlisi, şəhid Əliağa Eldəniz oğlu Məmmədov kimi Goranboy rayonunun Ballıqayadakı "N" sayli hissəsində xidmətə başlayır. Üç aydan sonra Tərtərə göndərilən Məhərrəm 18-20 gündən sonra artıq briqada tərkibində xidmət edirdi. Tez-tez ailəsi ilə zəngləşən Məhərrəmin komandirləri ondan razılıq edirdilər.

Atası Elxan Şahbaba oğlu Səmədov söyləyir ki, 2020-ci il, oktyabrın 1-də xidmətini başa vurub qayıtmalı idi. Paltarlarını alıb göndərmişdim. Qurbanlıq qoçu da hazır idi. Müharibə başladı. Sentyabrın 27-də zəng vurmuşdu. 28-də də zəng vurdu. Bildirdi ki, nigaran qalmayın, kənd uşaqları da var mənimlə. Tərtər, Cəbrayıl, Ağdərə uğrunda gedən döyüşlərdə rəşadətlə vuruşub. Axırıncı dəfə oktyabrın 6-da zəng vurdu. Tapşırdı ki, özünüzdən muğayıt olun. Ondan sonra zəng gəlmədi. Nigaran qaldım. Axtarmağa başladım. Binəqədiyə getdim. Əlaqə saxlamaq üçün nömrələr verdilər. Oktyabrın 23-də zəng gəldi. İcra Hakimiyyətinə çağırdılar. Onda qorxdum. Sanki ürəyim qopub ağzıma düşdü. Getdim. Orada artıq hər şey məlum idi. Polislərdən biri məni qucaqladı ki, başın sağ olsun. Artıq bir il ötüb, hələ də inana bilməyirəm. Gözüm qapıdadır.

Hıçqırığını güclə boğan nənəsi Yaqut xanım Məhərrəm Səmədov haqqında onu əzizləyir, oxşayırmış kimi danışır: "Əsgərlik vaxtında da onun üçün pul göndərirdim. İstəməyirdi, yenə göndərirdim. Deyirdi ki, nəsə baş versə, nənəyə deməyin. Qardaşına çox mehriban idi. Həmişə onu düşünürdü. Gələndən sonra arzuları var idi. Bibisini ana əvəzi bilirdi. Ad günlərində ona hədiyyə verəndə çox sevinirdi. Atası tərbiyə verib ona. Sözəbaxan idi. Əxlaqı var idi, tərbiyəsi var idi. Şükür ki, belə oğullar torpaqlarımızı azad etdilər. İstərdim ki, torpaqlarımız bir daha bölünməsin. Mən şəhid vermişəm. Can vermişəm. Vətən sağ olsun.

Səmədov Məhərrəm Elxan oğlu 2020-ci il, oktyabrın 15-də Ağdərə uğrunda gedən qızğın döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olub. Şəhadətindən sonra "Vətən uğrunda" və "Cəbrayıl rayonunun işğaldan azad olunması uğrunda" medalları ilə təltif edilib.

Şəhid Məhərrəm Səmədovun yaşamış olduğu ünvandayam. Burada hər şey elə səliqə-sahmanlı, elə yerli-yerində qoyulmuş, hamı elə ümidlə danışır ki, sanki kimsə gələcək. Bir də o əsgər paltarı geyinmiş oğlanın bir zamanlar sevərək oxşadığı, indi evin zirzəmisindən həyətə açılan böyük pəncərəyə vurulmuş dəmir tora qonmuş göyərçinləri yol gözləyir onu. Lakin doğulduğu gün kimi nur üzlü, günəş simalı Məhərrəm həyatına yazılan ay kimi müqəddəs yolu tutdu, Allaha, islama sığındı, Vətənin müdafiəsinə qalxdı, şəhadəti seçdi.

Zəkiyyə Əbilova